

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 111(23.998)

17 iyun 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyunun 16-da “Qlobal dünya nizamına təhdidlər” mövzusunda IX Qlobal Bakı Forumu işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı forumun açılış mərasimində nitq söyləyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu, Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Albaniya Respublikasının Prezidenti İlir Meta, Gürcüstan Prezidenti xanım Salome Zurabişvili, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç ilə görüşüb.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 16 iyun tarixli Sərəncamları ilə Azərbaycan Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxsə fəxri adlar verilmiş və “Tərəqqi” medalı ilə təltif olunmuşdur. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşları da vardır:

**Abbasova Yəmən Məmməd qızı**

“Əməkdar tibb işçisi” fəxri adı,

**Hacıyev Ramin İzzət oğlu**

**İmanova İsmət Cəfər qızı**

“Tərəqqi” medalı ilə təltif edilmişlər.

# Naxçıvanda Milli Qurtuluş Günü qeyd olunub



*Azərbaycan xalqı böyük ictimai, siyasi və tarixi dəyərə malik Milli Qurtuluş Gününü sosial-iqtisadi nailiyyətlərin, ərazi bütövlüyünün təmin olunmasının, işğaldan azad olunmuş ərazilərimizin dirçəldilməsinin sevinci ilə qeyd etdi. Muxtar respublikamızda bu əlamətdar tarixi gün ümummilli lider tərəfindən müəyyənləşdirilən siyasi kursu zənginləşdirərək uğurla davam etdirməsi nəticəsində qazanılan möhtəşəm nailiyyətlərlə ikiqat bayram sevinci ilə, silsilə tədbirlərlə qeyd olundu.*

İyunun 15-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyinin qarşısında Naxçıvan Dövlət Filarmoniyasının təqdim etdiyi konsert proqramı Müslüm Maqomayevin möhtəşəm “Azərbaycan” mahnısı ilə başlayıb. Üzeyir Hacıbəyovun, Tofiq Quliyevin, Cahangir Cahangirovun, Elza İbrahimovanın, Ceyhun Allahverdiyevin, Aygün Səmədzadənin, Oqtay Kazıminin, Emin Sabitoğlunun, Firudin Allahverdiyevin, Andrey Babayevin, Ramiz Mirişlinin, Eldar Mansurovun və Rauf Hacıyevin müəllifi olduğu əsərlər, həmçinin xalq mahnıları alqışlarla qarşılanıb. Naxçıvan Dövlət Filarmoniyasının və Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin rəqs kollektivləri tərəfindən ifa olunan xalq rəqsləri, yallılar və kompozisiyalar əsl bayram coşqusu yaradıb.

Musiqi nömrələrini Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfov, Mübariz Əsgərov və Gülyanaq Fərzəliyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfiqar Mahmudov və Ruhiyyə Hüseynova, gənc ifaçılar İlkin Abdullayev və Bəhruz Quliyev ifa edib. Kollektivlərin bədii rəhbər və dirijorları Cahangir Qurbanov, Elvin Əliyarov və Hakim Məmmədli olub.

Qeyd edək ki, muxtar respublikanın rayonlarında da Milli Qurtuluş Günü ilə bağlı tədbirlər keçirilib. Milli Qurtuluş Gününü təmsil edən müxtəlif şüar və plakatlarla, üçrəngli bayrağımızla bəzədilmiş parklarda əvvəlcə tədbirin aparıcıları 15 İyun – Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən söz açıb. Bildiriblər ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin inkişafı və qüdrətlənməsi naminə gördüyü işlər xalqımız tərəfindən heç bir zaman unudulmayacaq. Ölkənin bugünkü inkişaf və tərəqqisi, ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan ədalətli müharibədə qazanılan tarixi Zəfər məhz Milli Qurtuluşun bəhrələridir.





Şərur şəhərinin mərkəzində yerləşən “Heydər” Parkında Milli Qurtuluş Gününə həsr olunmuş tədbirdə rayon Mədəniyyət Şöbəsinin hazırladığı maraqlı konsert proqramı təqdim olunub. “Arpaçay” İnstrumental Ansamblının müşayiəti ilə nəğmələr və xalq mahnıları, saz havaları ifa edilib, “Şərur qönçələri” uşaq yallı ansamblı, Uşaq musiqi məktəblərinin şagirdləri ifa etdikləri rəqslərlə şənliyə daha da yaraşıq veriblər. Rəngarəng musiqi nömrələri və rəqslərlə davam edən bayram konserti tamaşaçı alqışları ilə müşayiət olunub.



15 İyun – Milli Qurtuluş Günü münasibətilə Babək rayonunda təşkil olunan bayram konsertində rayon Mədəniyyət İdarəsinin kollektivlərinin ifasında xalq və bəstəkar mahnıları səsləndirilib, milli rəqslər ifa olunub. Konsert rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

Ordubad rayonunda bu münasibətlə keçirilən bayram tədbiri “Gənclik” Parkında xalq gəzintisi ilə davam edib. Ordubad Rayon Mədəniyyət Sarayının “Dübəndi” İnstrumental Ansamblının rəngarəng konsert proqramı iştirakçılarda xoş bayram əhvali-ruhiyyəsi yaradıb.

Culfa şəhərində Milli Qurtuluş Günü münasibətilə keçirilən konsert proqramında rayonun mədəniyyət kollektivlərinin ifasında xalq və bəstəkar mahnıları səsləndirilib. Rayon sakinlərinə yüksək əhvali-ruhiyyə, bayram ovqatı bəxş edən konsert alqışlarla qarşılanıb.

Kəngərli rayonundakı Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında baş tutan konsert proqramında da bayram şənliyi yaşanıb. Sakinlərin kütləvi şəkildə iştirak etdiyi tədbirdə bir-birindən maraqlı musiqi nömrələri səsləndirilib, Kəngərli Rayon Mədəniyyət Şöbəsinin “Kəngər” İnstrumental Ansamblı rayon sakinlərinə xoş ovqat bəxş edib.

Şahbuz şəhərində Milli Qurtuluş Günü münasibətilə keçirilən tədbir də bayram ovqatı, qələbəliklə müşayiət edilib. Tədbirin bədii hissəsində rayonun mədəniyyət kollektivlərinin ifasında konsert proqramı olub, xalq və bəstəkar mahnıları səsləndirilib. Milli rəqslər, ümummilli liderə həsr olunmuş, vətənpərvərlik mövzusunda ifa olunan mahnılar iştirakçılar tərəfindən coşqu ilə qarşılanıb.

Sədərək rayonunda Heydərabad qəsəbəsindəki istirahət parkında keçirilən tədbirin bədii hissəsində rayon məktəbliləri tərəfindən 15 İyun – Milli Qurtuluş Gününə həsr edilən şeirlər bədii qiraət edilib. Rayonun mədəniyyət kollektivlərinin ifasında konsert proqramı olub, xalq və bəstəkar mahnıları səsləndirilib.

Bayram tədbirlərində iştirakçılara yüksək səviyyədə iaşə xidməti göstərilib.

**Xəbərlər şöbəsi**

# “Şuşa ili”nə həsr olunmuş “Cənnətim Qarabağ” adlı musiqili-ədəbi kompozisiya təqdim edilib

*Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının müəllim və şagirdlərinin “Şuşa ili”nə həsr olunmuş “Cənnətim Qarabağ” adlı musiqili-ədəbi kompozisiyası təşkil olunub.*

Tədbirdə Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun könüllü gəncləri və Mədəniyyət Nazirliyinin tabeliyində olan uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri iştirak ediblər.





Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının müəllimi, Azərbaycan Respublikasının Əməkdar müəllimi Hicran Sadıqzadə çıxış edərək keçirilən tədbirin əhəmiyyətindən danışıb. Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 5 yanvar tarixli Sərəncamı ilə 2022-ci il “Şuşa ili” elan edilib. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində qazandığımız parlaq qələbə bizi doğma Qarabağımıza, o cümlədən Şuşaya qovuşdurdu. “Şuşa ili” çərçivəsində bu Tarixi Zəfərimizi böyük təntənə ilə qeyd edirik. Diqqətə çatdırılıb ki, Sərəncamın icrası məqsədilə təsdiq olunmuş müvafiq “Tədbirlər Planı”na uyğun olaraq gimnaziyanın Teatr və Musiqi şöbələrinin şagirdlərinin iştirakı ilə silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Belə tədbirlərdən biri də Naxçıvan şəhərində keçirilir.

Daha sonra gimnaziyanın müəllim və şagirdlərinin ifasında rəngarəng konsert proqramı təqdim edilib. Konsert proqramında səslənən musiqi nömrələri, qiraət olunan şeirlər və şagirdlər tərəfindən təqdim edilən səhnəciklər tamaşaçılarda xoş təəssürat yaradıb. Klassik Azərbaycan bəstəkarlarının əsərləri, Vətənimizə və ümummilli lider Heydər Əliyevə həsr olunmuş şeirlər, Qarabağın baş tacı Şuşanı vəsf edən mahnılar tədbiri daha yaddaqalan edib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*17 iyun Tibb İşçilərinin Peşə Bayramı Günüdür*

# Muxtar respublikada müasir səhiyyə sistemi formalaşdırılıb



*Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli Sərəncamı ilə hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.*

Bu günün qeyd olunması ölkəmizdə səhiyyə sahəsinə, o cümlədən tibb işçilərinə göstərilən qayğının parlaq təzahürüdür. Milli dövlət quruculuğu strategiyasında səhiyyənin də inkişafına həssaslıqla yanaşan, bu sahəyə diqqət və qayğısını heç zaman əsirgəməyən ulu öndər Heydər Əliyev demişdir: ***“Tibb, səhiyyə hər bir insan üçün çox vacib olan sahədir. Özünü tibb, səhiyyə işinə, insanların sağlamlığının keşiyində durmaq işinə həsr edən adamlar, həqiqətən, çox yüksək hörmət və ehtirama layiq olan insanlardır”.***

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərində ölkəmizin bütün regionlarında səhiyyə ocaqları tikilərək istifadəyə verilmiş, əhalinin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilmişdir. Müstəqillik illərində də səhiyyənin inkişafına hesablanmış məqsədyönlü və ardıcıl tədbirlər görülmüş, bu sahədə fəaliyyəti tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, həkimlərin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, ixtisaslı və peşəkar həkim kadrlarının hazırlanması diqqət mərkəzində saxlanılmışdır.

Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. ***“Mən çalışıram və istəyirəm ki, Azərbaycanın hər bir yerində yüksək səviyyəli tibbi xidmət göstərilsin”***, – deyən ölkə Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində uğurla davam etdirir. Son illər tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Qəbul olunmuş Dövlət proqramlarının icrası göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin artmasına, dərmanla təchizatın əhəmiyyətli dərəcədə yaxşılaşmasına şərait yaradır.

Həyatın bütün dönəmlərində insan sağlamlığının qorunması ən mühüm amillərdən hesab olunub. Belə ki, sağlamlıq olmayan yerdə hər hansı bir sağlam mühitdən və sağlam cəmiyyətdən söhbət gedə bilməz. Sağlamlığın qorunması və təmin olunması, “sağlam insan, sağlam cəmiyyət” prinsipinin əsas götürüldüyü muxtar respublikamızda bu istiqamətdə mühüm tədbirlər görülür. Əhalinin sağlamlığının qorunması istiqamətində tibbi profilaktikanın genişləndirilməsi, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası daim diqqətdə saxlanılır. Müstəqillik illərində muxtar respublikada 200-dən artıq səhiyyə müəssisəsi tikilmiş, ən son tibbi avadanlıqlarla təmin olunmuşdur. Təkcə bu ilin ötən dövründə Şərur Rayon Çərçiboğan kənd həkim ambulatoriyası və “İmplant Dent Naxçıvan” Özəl Stomatoloji Klinikası tikilmiş və ya yenidən əsaslı təmir edilərək əhalinin istifadəsinə verilmişdir. Quruculuq işlərinin davamı kimi hazırda Darıdağ Arsenli Su Müalicəxanası, Ordubad rayon Ağrı və Xanağa feldşer-mama məntəqələri, Babək rayon Vayxır kənd həkim ambulatoriyasında tikinti, Axura kənd həkim ambulatoriyasında isə əsaslı təmir işləri aparılır. Naxçıvan Muxtar Respublikasında səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması yalnız bir məqsədə – əhalinin sağlamlığının qorunmasına xidmət edir.

Səhiyyə sistemi qarşısında qoyulan vəzifələrdən biri də budur ki, insanlar tibbi yardımı yerlərdə ala bilsinlər, hər bir müayinə və tibbi müdaxilə üçün Naxçıvan şəhərinə, başqa yerlərə getmək məcburiyyətində olmasınlar. Artıq belə şərait yaradılmışdır. Rayon mərkəzi və kənd sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri müasir tələblər səviyyəsində qurulmuş, tibbi avadanlıqlarla təchiz edilmiş və həmin avadanlıqlarla işləyə biləcək kadrlar yetişmişdir. Əminliklə demək olar ki, artıq vətəndaşların hər kənddə, rayon mərkəzlərində keyfiyyətli tibbi yardım alması mümkündür.





Naxçıvan Muxtar Respublikasında səhiyyə sisteminin kadr potensialının artırılması, bu sahənin savadlı və yüksək bilikli kadrlarla zənginləşdirilməsi, eləcə də muxtar respublikanın tibb müəssisələrində fəaliyyət göstərən həkim və orta tibb işçilərinin ixtisasları üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi diqqətdə saxlanılmış, bu istiqamətdə görülən işlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında tibb işçilərinin dövlət səhiyyə müəssisələrinə işə qəbulu və sertifikasiyanın aparılması Qaydaları” haqqında Qərarına uyğun olaraq ötən dövrdə tibb işçilərinin işə qəbulu müsabiqə yolu ilə aparılmışdır.

Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi sahəsində tədbirlər davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Tibb Kolleci Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə həmiliyə verilib. Həyata keçirilən tədbirlər nəticəsində Səhiyyə Nazirliyi ilə bu təhsil müəssisələri arasında əlaqələr daha da genişlənib. Sərəncamın icrası ilə əlaqədar Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Naxçıvan Tibb Kollecinin tələbələri qrafikə uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən tibb müəssisələrində təcrübə keçir, elmi biliklərini daha da dərinləşdirmək üçün nəzəri biliklərə də yiyələnirlər. Hazırda Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində həm bakalavr, həm də rezidentura üzrə həkim hazırlığı, Naxçıvan Tibb Kollecində isə orta tibb işçilərinin hazırlığı həyata keçirilir. Səhiyyə işçilərinin tibbin müxtəlif profilləri üzrə müasir elmi biliklərinin artırılması məqsədilə elmi-praktik seminar və konfransların təşkili ilə yanaşı, Naxçıvan Dövlət Universiteti və Tibb Kollecində təhsil alan gələcəyin tibb işçiləri üçün də yüksəkixtisaslı həkimlər tərəfindən təlimlərin keçirilməsi diqqətdə saxlanılmış, universitetin Tibb fakültəsinin müasir tələblərə cavab verən xəstəxanasında tələbələr nəzəri biliklərlə yanaşı, praktik biliklərini də zənginləşdirə bilirlər. Yaradılan şəraitin və görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikada yüksək tibbi bilik və bacarıqlara yiyələnən həkim və orta tibb işçiləri nəinki muxtar respublikada, eləcə də ölkədə və xarici ölkələrdə öz ixtisasları üzrə seçilən tibb işçiləri kimi fəaliyyət göstərirlər.

Hazırda muxtar respublikada 215 tibb müəssisəsi fəaliyyət göstərir ki, həmin tibb müəssisələrində 718 həkim, 2 min 196 orta tibb işçisi çalışır.

Muxtar respublikada tibb müəssisələrində fəaliyyət göstərən tibb işçilərinin peşəkarlıq səviyyəsinin yüksək olmasının nəticəsidir ki, artıq Naxçıvanda TUR, açıq ürək, ürək damarlarına stend qoyulması, laparoskopik, göz və digər mürəkkəb cərrahi əməliyyatlar aparılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün muxtar respublikada insanların sağlamlığının qorunması, onların müalicə və müayinəsinin yüksək səviyyədə təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Səhiyyə sisteminin maddi-texniki bazasının müntəzəm olaraq möhkəmləndirilməsi, yüksək səhiyyə xidmətinin təşkili öz bəhrəsini verir. Artıq muxtar respublikada ciddi problem yaradan xəstəliklər yoxdur, insanların sağlamlığı daim diqqət mərkəzində saxlanılır”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir. Dispanserizasiya işinin yaxşılaşdırılması, əhalinin kütləvi müayinələrdən keçirilməsini təmin etmək məqsədilə həkim briqadaları yaradılmışdır ki, bu gün də həmin briqadalar sayəsində muxtar respublikanın ən ucqar kəndlərində belə əhaliyə yüksəkixtisaslı həkimlər tərəfindən müayinə və müalicələr tətbiq edilir. Proqramın icrası cari ildə də diqqətdə saxlanılmış, muxtar respublikanın şəhər və rayonlarında uşaqlar qeydiyyata alınaraq dərindən tibbi müayinələrə cəlb olunmuş, dispanser nəzarətə alınan uşaqların müvafiq ixtisas həkimləri tərəfindən müayinəsi aparılmışdır.

Muxtar respublikada bütün kateqoriyalardan olan uşaqlara, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlara xüsusi qayğı göstərilir, onların yüksək səviyyədə təhsil almaları, asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, vaxtlı-vaxtında müayinə və müalicələrə cəlbi, cəmiyyətə inteqrasiyası və sosial statusunun bərpası istiqamətində də ardıcıl tədbirlər görülür. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” bu istiqamətdə aparılan məqsədyönlü tədbirlərin təşkilini daha da sürətləndirir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən proqramın icrası ilə əlaqədar mütəmadi olaraq uşaqların sağlamlığı istiqamətində əhəmiyyətli işlər görülür, sağlamlıq imkanları məhdud olan uşaqlar dispanser qeydiyyatına alınaraq nəzarətə götürülür, onların dərin tibbi müayinəsi aparılır.



“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq səhiyyə sistemində elektron xidmətlər təkmilləşdirilir. Tibbi-Sosial Ekspertiza Komissiyasına göndərişlər onlayn sistemə keçirilib. Bu sistem sağlamlıq imkanları məhdudluq dərəcəsinin qiymətləndirilməsində vətəndaş-ekspert təması olmadan, elektron müstəvidə və şəxsin kimliyi, göndəriş verən təşkilatın hansı səhiyyə qurumu olduğu bilinmədən anonim olaraq, xəstəliyi əks etdirən tibbi sənədlər əsasında şəffaf şəkildə həyata keçirilməsinə imkan yaradır.

Əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsində icbari tibbi sığortanın tətbiqi mühüm şərtdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 mart tarixli “Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanı muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəlməsi, hər bir vətəndaş üçün əlçatan olması baxımından mühüm əhəmiyyət daşıyır. Tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə muxtar respublika əhəmiyyətli xəstəxanalar, rayon mərkəzi xəstəxanaları, qəsəbə və kənd sahə xəstəxanalarının hamısı publik hüquqi şəxs statusu alıb, burada işçilərin əməkhaqları 50 faiz artırılıb. Yaradılan şəraitin nəticəsidir ki, icbari tibbi sığortanın tətbiqi ilə muxtar respublikada göstərilən tibbi xidmətin keyfiyyəti artırılmış, mərkəzi xəstəxanalarda müvafiq şöbələr yenidən təşkil edilərək tibb müəssisələrində “Səhiyyə İnformasiya İdarəetmə Sistemi” yaradılmışdır. Hazırda muxtar respublikada icbari tibbi sığortanın tətbiqi uğurla davam etdirilir. Vətəndaşlar tərəfindən müraciət edilmiş tibb müəssisələrində lazımi tibbi xidmətin göstərilməsi mümkün olmadıqda müəssisə tərəfindən onlar ehtiyacı olan tibbi xidmətlərin göstərildiyi uyğun tibb müəssisələrinə göndərilir ki, həmin müəssisələrdə də tibbi sığorta hesabına vətəndaşların müayinə və müalicələri həyata keçirilir.

Muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının tərkib hissəsi kimi gigiyena və epidemiologiya tədbirlərinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin və onun rayon şöbələrinin fəaliyyəti təmin edilib, yeni binalar istifadəyə verilib, avadanlıqlar alınıb, müasir laboratoriyalar qurulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamına əsasən təsdiq edilən “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı” da bu sahədə fəaliyyətin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Proqramın icrası ilə əlaqədar verilmiş tapşırıqların yerinə yetirilməsi məqsədilə muxtar respublikada əks-epidemik tədbirlər çərçivəsində sanitar-epidemioloji xidmətin fəaliyyəti yenidən qurularaq günün tələbləri səviyyəsinə çatdırılmış, yaşayış məntəqələrində və əhalinin sıx olduğu yerlərdə qrafikə uyğun dezinfeksiya işləri aparılmış, idarə, müəssisə və təşkilatların inzibati binaları və xidmət sahələri mərhələli şəkildə dezinfeksiya olunmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon şöbələri tərəfindən muxtar respublikanın şəhər və rayonlarında hər hansı yarana biləcək infeksiyaların qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə qrafik əsasında dezinfeksiya işlərinin aparılması davam etdirilir.

Səhiyyə turizmi də daim diqqətdə saxlanılır. Tənəffüs yolları və dəri xəstəlikləri üçün nadir müalicəvi əhəmiyyəti ilə seçilən Duzdağ Fizioterapiya Mərkəzində və Darıdağ Arsenli Su Müalicəxanasında hər il ölkə və bir çox xarici ölkə vətəndaşları müalicə olunurlar. Hazırda tikintisi davam edən Darıdağ Arsenli Su Müalicəxanası və İstirahət Kompleksi, həmçinin “Darıdağ” Termal Hotelin tikintisi bu şəfalı suyun müalicəvi xüsusiyyətlərindən səmərəli şəkildə istifadəyə şərait yaradacaq.

Bu gün muxtar respublikada insan sağlamlığının əmanət edildiyi tibb işçilərinə xüsusi qayğı göstərilir, bu sahədə fəaliyyət göstərən həkim və orta tibb işçilərinin əməyi daim yüksək qiymətləndirilir. Müstəqillik illərində muxtar respublikada fəaliyyət göstərən və əhalinin sağlamlığının qorunması sahəsində xüsusi xidmətlərinə görə seçilən səhiyyə işçiləri xüsusi adlarla təltif edilmişdir ki, onlardan 25-i “Tərəqqi” medalı, 20-si “Azərbaycan Respublikasının Əməkdar həkimi”, 46-sı “Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi”, 10-u “Azərbaycan Respublikasının Əməkdar tibb işçisi”, 16-sı “Naxçıvan Muxtar Respublikasının Əməkdar tibb işçisi” fəxri adları, 14-ü Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanı, 54-ü Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanı, 1-i “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”, 15-i Azərbaycan Respublikasının “Səhiyyə əlaçısı” döş nişanı, 9-u isə Naxçıvan Muxtar Respublikasının “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmuşdur.

Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Peşə bayramını yüksək nailiyyətlərlə qeyd edən tibb işçiləri bundan sonra da səhiyyənin inkişafına, əhalinin sağlamlığının qorunmasına öz töhfələrini verəcəklər.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 17 iyun-18 iyul 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak etmək üçün 90 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət İmtahan Mərkəzinə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət İmtahan Mərkəzinin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| | Naxçıvan şəhəri üzrə: | | | | |
| 6900549 | Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey | Tərbiyəçi-müəllim | 6 | - | * |
| 6910318 | 3 nömrəli tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 14 | ** |
| 6910312 | 3 nömrəli tam orta məktəb | Tarix | 1 | 12 | ** |
| 6910513 | 5 nömrəli tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6910518 | 5 nömrəli tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6910512 | 5 nömrəli tam orta məktəb | Tarix | 2 | 24 | |
| 6910613 | 6 nömrəli tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6910920 | 9 nömrəli tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6911013 | 10 nömrəli tam orta məktəb | Coğrafiya | 2 | 28 | |
| 6911207 | 12 nömrəli tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6911209 | 12 nömrəli tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6911307 | 13 nömrəli tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6911420 | 14 nömrəli tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6911513 | 15 nömrəli tam orta məktəb | Coğrafiya | 1 | 18 | |
| 6911514 | 15 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 1 | 18 | |
| 6911521 | 15 nömrəli tam orta məktəb | Rus dili | 1 | 18 | |
| 6911620 | 16 nömrəli tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6911616 | 16 nömrəli tam orta məktəb | Musiqi | 1 | 12 | |
| 6911621 | 16 nömrəli tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6911617 | 16 nömrəli tam orta məktəb | Təsviri incəsənət | 1 | 12 | |
| 6911714 | 17 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 2 | 24 | |
| | Cəmi: | 29 yer | | | |
| | Şərur rayonu üzrə: | | | | |
| 6900425 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Fransız dili | 1 | 12 | |
| 6900421 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Rus dili | 1 | 12 | |
| 6920822 | Axaməd kənd tam orta məktəbi | Alman dili | 1 | 9 | |
| 6920909 | Axura kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920910 | Axura kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6920908 | Axura kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6920313 | Alışar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920309 | Alışar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920421 | Aralıq kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6920612 | Aşağı Daşarx kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6920713 | Aşağı Yaycı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6921409 | Danyeri kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921609 | Dərəkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921710 | Dərvişlər kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6921813 | Diyadin kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6921821 | Diyadin kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6921916 | Dizə kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6922113 | Ələkli kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6922211 | Ərəbyengicə kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6922210 | Ərəbyengicə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922309 | Gümüşlü kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922522 | Həmzəli kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6922511 | Həmzəli kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6922509 | Həmzəli kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922518 | Həmzəli kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6922510 | Həmzəli kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924922 | Xanlıqlar kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6925013 | Xələc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925025 | Xələc kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6922616 | İbadulla kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6922615 | İbadulla kənd tam orta məktəbi | Texnologiya | 1 | 12 | |
| 6922709 | Kərimbəyli kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922918 | Kürçülü kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6923009 | Kürkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923709 | Qaraburc kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923719 | Qaraburc kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6923720 | Qaraburc kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6923710 | Qaraburc kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6923708 | Qaraburc kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6923819 | Qarahəsənli kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6924013 | Qorçulu kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924009 | Qorçulu kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6924010 | Qorçulu kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6923116 | Mahmudkənd kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6923221 | Maxta kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6923309 | Muğancıq-Mehrab kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923314 | Muğancıq-Mehrab kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6923610 | Püsyan kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924207 | Siyaqut kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6924214 | Siyaqut kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6924221 | Siyaqut kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6924313 | Şahbulaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | *** |
| 6924309 | Şahbulaq kənd tam orta məktəbi | Fizika | 1 | 12 | *** |
| 6924412 | Şəhriyar kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6924707 | Tumaslı kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6924720 | Tumaslı kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6924822 | Vərməziyar kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6924811 | Vərməziyar kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6924812 | Vərməziyar kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6925211 | Yengicə kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6925221 | Yengicə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6925309 | Yeni Havuş kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925525 | Yuxarı Yaycı kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | *** |
| 6925519 | Yuxarı Yaycı kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | *** |
| 6925619 | Zeyvə kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| | Cəmi: | 65 yer | | | |
| | Babək rayonu üzrə: | | | | |
| 6930119 | Babək şəhər 1 nömrəli tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6930120 | Babək şəhər 1 nömrəli tam orta məktəb | İngilis dili | 1 | 12 | |
| 6930108 | Babək şəhər 1 nömrəli tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6930514 | Cəhri qəsəbə 1 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6930909 | Gərməçataq kənd tam orta məktəbi | Fizika | 1 | 12 | *** |
| 6930918 | Gərməçataq kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | *** |
| 6930921 | Gərməçataq kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | *** |
| 6931022 | Göynük kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | *** |
| 6931222 | Güznüt kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6933220 | Xalxal kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | *** |
| 6933210 | Xalxal kənd tam orta məktəbi | Kimya | 1 | 12 | *** |
| 6931419 | Kərimbəyli kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6932508 | Qahab kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6932521 | Qahab kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6932620 | Qaraqala kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6931822 | Naxışnərgiz kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6931808 | Naxışnərgiz kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6931913 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6932022 | Nəhəcir kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | *** |
| 6932407 | Payız kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | *** |
| 6932410 | Payız kənd tam orta məktəbi | Kimya | 1 | 12 | *** |
| 6932713 | Sirab kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6933022 | Uzunoba kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6933421 | Yarımca kənd tam orta məktəbi | Rus dili | 1 | 14 | |
| 6933509 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Fizika | 1 | 12 | *** |
| | Cəmi: | 25 yer | | | |
| | Ordubad rayonu üzrə: | | | | |
| 6940212 | Ordubad şəhər 3 nömrəli tam orta məktəb | Tarix | 1 | 14 | |
| 6940319 | Ordubad rayon internat məktəbi | İnformatika | 1 | 18 | |
| 6940320 | Ordubad rayon internat məktəbi | İngilis dili | 1 | 18 | |
| 6940308 | Ordubad rayon internat məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6940409 | Aşağı Əylis kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6940414 | Aşağı Əylis kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6940418 | Aşağı Əylis kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6940611 | Azadkənd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | *** |
| 6940620 | Azadkənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | *** |
| 6940713 | Baş Dizə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | *** |
| 6940718 | Baş Dizə kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | *** |
| 6940810 | Behrud kənd tam orta məktəbi | Kimya | 1 | 12 | *** |
| 6940911 | Biləv kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | *** |
| 6940910 | Biləv kənd tam orta məktəbi | Kimya | 1 | 12 | *** |
| 6941013 | Bist kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | *** |
| 6941107 | Çənnəb kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 15 | *** |
| 6941220 | Dəstə kənd tam orta məktəbi | İngilis dili | 3 | 45 | |
| 6941221 | Dəstə kənd tam orta məktəbi | Rus dili | 1 | 15 | |
| 6941610 | Düylün kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941712 | Ələhi kənd tam orta məktəbi | Tarix | 1 | 12 | *** |
| 6941818 | Əndəmic kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6941910 | Gənzə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941908 | Gənzə kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6942010 | Gilançay kənd tam orta məktəbi | Kimya | 1 | 12 | *** |
| 6942361 | Nəsirvaz kənd tam orta məktəbi | Kimya-biologiya | 1 | 12 | *** |
| 6942413 | Nürgüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | *** |
| 6942409 | Nürgüt kənd tam orta məktəbi | Fizika | 1 | 12 | *** |
| 6942510 | Nüsnüs kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6942607 | Parağa kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 18 | *** |
| 6942610 | Parağa kənd tam orta məktəbi | Kimya | 1 | 12 | *** |
| 6942608 | Parağa kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 20 | *** |
| 6942722 | Pəzməri kənd ümumi orta məktəbi | Alman dili | 1 | 12 | *** |
| 6942712 | Pəzməri kənd ümumi orta məktəbi | Tarix | 1 | 12 | *** |
| 6942807 | Sabirkənd kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | *** |
| 6942819 | Sabirkənd kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | *** |
| 6942810 | Sabirkənd kənd tam orta məktəbi | Kimya | 1 | 12 | *** |
| 6942812 | Sabirkənd kənd tam orta məktəbi | Tarix | 1 | 12 | *** |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6942910 | Tivi kənd tam orta məktəbi | Kimya | 1 | 12 | *** |
| 6943010 | Unus kənd tam orta məktəbi | Kimya | 1 | 12 | *** |
| 6943220 | Vələver kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6943210 | Vələver kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943212 | Vələver kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6943618 | Yuxarı Əylis kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | |
| 6943610 | Yuxarı Əylis kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| **Cəmi:** | | **46 yer** | | | |
| **Culfa rayonu üzrə:** | | | | | |
| 6950418 | Bənəniyar kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 2 | 24 | *** |
| 6950713 | Dizə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6951018 | Ərəfsə kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | *** |
| 6951010 | Ərəfsə kənd tam orta məktəbi | Kimya | 1 | 10 | *** |
| 6952318 | Xanəgah kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | *** |
| 6951913 | Qızılca kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | *** |
| 6951722 | Milax kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | *** |
| 6952118 | Şurud kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | *** |
| 6952210 | Teyvaz kənd tam orta məktəbi | Kimya | 1 | 10 | *** |
| 6952221 | Teyvaz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | *** |
| 6952507 | Yaycı kənd 1 nömrəli tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6952514 | Yaycı kənd 1 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6952510 | Yaycı kənd 1 nömrəli tam orta məktəb | Kimya | 1 | 12 | |
| 6952508 | Yaycı kənd 1 nömrəli tam orta məktəb | Riyaziyyat | 1 | 12 | |
| 6952621 | Yaycı kənd 2 nömrəli tam orta məktəb | Rus dili | 1 | 12 | |
| **Cəmi:** | | **16 yer** | | | |
| **Kəngərli rayonu üzrə:** | | | | | |
| 6970114 | Qıvraq qəsəbə tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6970118 | Qıvraq qəsəbə tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6970110 | Qıvraq qəsəbə tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6970222 | Böyükdüz kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6971007 | Xok kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6971014 | Xok kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6970407 | Qabıllı kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 18 | |
| 6970418 | Qabıllı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6970512 | Qarabağlar kənd 1 nömrəli tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6970614 | Qarabağlar kənd 2 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6970825 | Təzəkənd kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | *** |
| 6971220 | Yurdçu kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| **Cəmi:** | | **12 yer** | | | |
| **Şahbuz rayonu üzrə:** | | | | | |
| 6960212 | Şahbuz şəhər 2 nömrəli tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6960422 | Ağbulaq kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6960413 | Ağbulaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960410 | Ağbulaq kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6960613 | Badamlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960620 | Badamlı kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6961007 | Gömür kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyat | 1 | 12 | |
| 6961011 | Gömür kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961018 | Gömür kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6961020 | Gömür kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6961010 | Gömür kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961113 | Güney Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961110 | Güney Qışlaq kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961121 | Güney Qışlaq kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6961320 | Kolanı kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6961310 | Kolanı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961410 | Kükü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961518 | Külüs kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6961722 | Nursu kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6961711 | Nursu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962113 | Şahbuzkənd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962313 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| **Cəmi:** | | **22 yer** | | | |
| **Sədərək rayonu üzrə:** | | | | | |
| 6980120 | Heydərabad qəsəbə tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6981519 | Dəmirçi kənd tam orta məktəbi | İnformatika | 1 | 14 | |
| 6981521 | Dəmirçi kənd tam orta məktəbi | Rus dili | 1 | 20 | |
| 6980211 | Qaraağac kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6980213 | Qaraağac kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6980209 | Qaraağac kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6980218 | Qaraağac kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6980220 | Qaraağac kənd tam orta məktəbi | İngilis dili | 1 | 14 | |
| 6980210 | Qaraağac kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6980212 | Qaraağac kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6980322 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | Alman dili | 1 | 14 | |
| 6980311 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | Biologiya | 1 | 12 | |
| 6980309 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6980318 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6980319 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6980310 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | Kimya | 1 | 20 | |
| 6980308 | Sədərək kənd 1 nömrəli tam orta məktəb | Riyaziyyat | 1 | 15 | |
| 6980413 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6980409 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | Fizika | 1 | 24 | |
| 6980418 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6980408 | Sədərək kənd 2 nömrəli tam orta məktəb | Riyaziyyat | 1 | 15 | |
| **Cəmi:** | | **21 yer** | | | |
| **YEKUN:** | | **236 yer** | | | |

(*) Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyə Tərbiyəçi-müəllim vəzifəsinə ən yüksək bal toplamış 3 kişi və 3 qadın tərbiyəçi qəbul ediləcəkdir. Həmin vəzifələrə ali və orta ixtisas təhsili müəssisələrini Azərbaycan dili və ədəbiyyat, Biologiya, Fizika, İngilis dili, Kimya və Riyaziyyat ixtisasları üzrə bitirmiş şəxslər müraciət edə bilərlər.

(**) Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

(***) Bu müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli Qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.

## Yeni nəsil telekommunikasiya avadanlıqlarının təqdimatı keçirilib



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə "Buta Global Enerji" şirkəti tərəfindən Nazirliyin aparatının, tabeli qurumlarının və Naxçıvan Muxtar Respublikasının Radio-Televiziya Ötürücü Mərkəzinin mühəndisləri və texniki işçilərinə yeni alınmış telekommunikasiya avadanlıqlarının istifadə qaydaları öyrədilib.*

Tədbirdə nazirliyin aparatının Telekommunikasiya və radiotezliklərin qeydiyyatı şöbəsinin müdiri Ruhən Əsgərov bildirib ki, muxtar respublikada yeni nəsil telekommunikasiya şəbəkələrinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, əhalinin müasir rabitə və internet xidmətləri ilə əhatə olunması diqqət mərkəzində saxlanılır.

"Buta Global Enerji" şirkətinin radioölçmələr üzrə mütəxəssisi, telekommunikasiya üzrə mühəndis-ekspert Ramazan Əliyev slaydlar vasitəsilə yeni telekommunikasiya avadanlıqlarının istifadə qaydalarından bəhs edərək bildirib ki, Kanadanın EXFO şirkətinin istehsalı olan Max Tester730c-Pon/metro OTDR-1310/1550nm tablettipli müasir ölçmə cihazı (OTDR-Optical Time Domain Reflectometer-optik zaman domen reflektoru), fiber-optik şəbəkələrdə, habelə FTTX/DON şəbəkələrdə istifadə üçün tam avtomatlaşdırılmış Windows əməliyyat sistemi ilə işləyən proqram təminatı və müasir interfeyslə təchiz edilib.

Qeyd olunub ki, muxtar respublikada ilk dəfə istifadə ediləcək bu cihaz vasitəsilə fiber-optik şəbəkələrin çəkilişi, habelə texniki xidmət üçün effektiv ölçü cihazı olmaqla fiber-optik kabellərdə lif birləşmə itkisinin yoxlanılmasına, uzunluğunu ölçməyə, kabel qırılmalarını aşkarlamağa imkan yaranır.

Vurğulanıb ki, nazirliyə cari ilin əvvəlində alınmış Almaniya istehsalı olan "Rohde & Schwarz" Spectrum Rider analizatoru, yeni alınmış HE400VHF markalı aşağı tezliklərdə çalışan radioötürücü avadanlıqların spektr ölçmələrini ölçmək üçün anten modulu ilə dəstləşdirilib. Bu da muxtar respublika ərazisində televiziya və radio proqramlarının yayım vəziyyətinin yoxlanılması və aşağı tezlik diapazonlarının ölçülməsinə şərait yaradacaqdır.

Təlimdə, həmçinin Fluke Networks PRO3000 Tone&Probe Kit, Fluke Networks Intelli Tone Pro 200 Lan Tone&Probe Kit və Fluke Networks micro scanner 2 cable Verifier ölçmə cihazlarının versiyaları, onların istifadə qaydaları və xüsusiyyətləri barədə də iştirakçılara məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Növbəti çimərlik mövsümünə start verilib



Ötən şənbə günü Uzunoba İstirahət Mərkəzində keçirilən açılış tədbirində Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, fövqəladə hallar naziri Şamı Abdullayev və Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış ediblər. Çıxışlarda bildirilib ki, muxtar respublikada istirahət yerlərindən biri olan Uzunoba Su Anbarında yaradılan çimərlik istirahət zonasında təhlükəsizlik tədbirləri görülüb, su və digər idman növləri üzrə yarışların, eləcə də müxtəlif tədbirlərin keçirilməsinə şərait yaradılıb.

Qeyd edək ki, quru sahəsinin uzunluğu 221 metr olan çimərliyə əlavə olaraq 442 kubmetr qum verilib, nümunəvi xidmətin təşkili məqsədilə ərazidə abadlıq və təmir-bərpa işləri görülüb. Burada böyüklər və uşaqlar üçün nəzərdə tutulmuş iki çimərlik, kafe-restoran, voleybol meydançası, müşahidə qülləsi, şəxsi əşyaların saxlanılması üçün 88 yerlik dəmir dolab, 4 duş kabini, 4 pedallı su qayığı, 35 çətir, 44 şezlonq, sanitar qovşaq və açıq istirahət köşkləri mövcuddur.

Fövqəladə Hallar Nazirliyinin təlim və kurslarda iştirak etmiş 6 nəfərdən ibarət xilasetmə qrupu ərazidə xidmət aparacaq. Əraziyə müvafiq xəbərdaredici və qadağanedici nişanlar qoyulub, suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən məhdudlaşdırıcı şarlar quraşdırılıb. Çimərlik saat $9^{00}$-dan $19^{00}$-dək, kafe-restoran isə gecə saatlarınadək fəaliyyət göstərəcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Ordubad rayonunda istedadlı qadınların əl işlərindən ibarət səyyar sərgi-satış təşkil edilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən muxtar respublikanın turistik mərkəzlərində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən istedadlı qadınların əl işlərindən ibarət səyyar sərgi-satış təşkil edilir. İlk belə tədbir Ordubad rayonunun geniş turizm imkanlarına malik Anaqut kəndindəki "Xan Çinar" İstirahət Mərkəzində təşkil olunub. Məqsəd muxtar respublikada qəbul edilmiş əhalinin məşğulluğunun artırılması üzrə Dövlət proqramının icrası istiqamətində həyata keçirilən işlərə töhfə vermək, çoxəsrlik milli-mənəvi dəyərlərimizin, xalq tətbiqi sənət nümunələrinin yaşadılması və təbliğ edilməsidir.

Səyyar sərgi-satışda, ümumilikdə, 17 müəllifin 1500-ə yaxın əl işi sərgilənib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***


**İtmişdir**

İsmayılov Arif İsmayıl oğlunun adına verilmiş Şərur şəhəri, M.Müşfiq küçəsi, 11/2 ünvanında yerləşən mənzilin 102011000044-05101-093008 reyestr nömrəli texniki pasport və çıxarış itdiyindən etibarsız sayılır.

***

Əliyev Səxavət Məmmədəli oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Haqverdiyeva Gülüstan Qubad qızına məxsus buraxılış vəsiqəsi itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA



Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az



Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 531